

Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 06 (5485) 31 may 2017-ci il Qəzet 1937-ci ildən çıxır Rayonun ictimai-siyasi qəzeti Qiyməti 40 qəpik

# Sağlığında canlı əfsanəyə çevrildi

## *Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş elmi-praktik konfrans keçirildi*

Azərbaycan xalqinin ümummilli lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibəti ilə Heydər Əliyev Mərkəzində elmi-praktik konfrans keçirildi.

Öncə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın inkişafındakı roluna, ictimai-siyasi fəaliyyətinə, həyat və yaradıcılığına həsr olunmuş "Xalqa bağışlanan ömür" adlı qısametrajlı sənədli filmə baxdılar.

Konfransı giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü respublikanın hər yerində olduğu kimi rayonumuzda da böyük təntənə ilə, bayram əhvali-ruhiyyəsi ilə qeyd edilir. Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və yaradıcılığına həsr olunmuş rayonun idarə, müəssisə və təşkilatları tərəfində tədbirlər, ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinə tarix dərsləri, həmçinin ulu öndərin anadan olmasının 94-cü il münasibəti ilə məktəblilər arasında müxtəlif növ idman yarışları, müsabiqələr və sərgilər keçirilir.





Azərbaycan xalqının ictimai-siyasi həyatında, dövlətçilik tarixində özünəməxsus rol oynamış ümummilli lideri Heydər Əliyev dövlətçilik konsepsiyasının, ənənələrinin yaradılmasında mühüm rol oynamış və adını qızıl hərflərlə Azərbaycan tarixinə yazmışdır. Odur ki, hələ sağlığında canlı əfsanəyə çevrilən Heydər Əliyevə ümumxalq sevgisi, Heydər Əliyev fenomeninə maraq illər ötdükcə daha da artır.

Konfransda ulu öndərin Azərbaycanın dövlətçilik tarixinin ayrı-ayrı sahələri üzrə fəaliyyətini əks etdirən "Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qazanılması və möhkəmlənməsində müstəsna rolu" mövzusunda YAP Lerik rayon təşkilatının sədri Elxan Qənbərovun, "Heydər Əliyev və müasir Azərbaycan gəncliyi" mövzusunda Gənclər və idman idarəsinin rəisi Natiq İsaqovun, "Heydər Əliyev və milli mənəvi dəyərlərimiz" mövzusunda Heydər Əliyev Mərkəzinin əməkdaşı Bahar Mürsəliyevanın məruzələri dinlənildi.

Sonda Lerik şəhər 3 saylı tam orta məktəbin 7-ci sinif şagirdi Kənan Seyfullazadəyə rayonda keçirilən bilik yarışlarında, mədəni-kütləvi tədbirlərdə fəal iştirakına, təhsildə fərqlənməsinə və Heydər Əliyev 94 "Ən yaxşı təqdimat" müsabiqəsinin respublika turunda 2-ci dərəcəli diplomla təltif olunmasına görə rayon icra hakimiyyəti başçısı tərəfindən Fəxri fərmanla təltif edildi.

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü təntənə ilə qeyd edildi



Azərbaycan xalqinin ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ulu öndərin mərkəzi meydandakı abidəsi önündə böyük izdiham toplaşmışdı.

Öncə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ağsaqqallar ulu öndərin abidəsini ziyarət etdilər, abidənin önünə tər gül-çiçəklər düzdülər.

Ulu öndərin adını daşıyan meydanda əllərində gül-çiçək dəstələri ilə onun əzəmətli abidəsinin qarşısında növbəyə dayanan rayon sakinləri xalqımızın dahi oğlu Heydər Əliyevin abidəsi önündən keçərək ulu öndərə ehtiramlarını bildirdilər.

# Ümumrayon iməciliyi - ağacəkmə kampaniyası keçirildi

Azərbaycan xalqinin ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar rayonun idarə, müəssisə və təşkilat kollektivlərinin, ağsaqqalların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə ümumrayon iməciliyi-ağacəkmə kampaniyası keçirildi.

İməcilikdə 1300 nəfərə yaxın rayon sakini iştirak edirdi. Ağacəkmə kampaniyası çərçivəsində Heydər Əliyev meydanında, bayraq meydanında və Şəhidlər abidə kompleksində, Lerik şəhərinin park və xiyabanlarında, Lənkəran-Lerik magistral avtomobil yolunun 50-56-cı kilometrliklərində, Lerik-Qosmalıan-Kəlvəz, Noda-Şingədulan-Xanəgah, Piran-Hamarat-Vijaker avtomobil yollarının kənarında, rayonun idarə, müəssisə və təşkilatların həyətlərində və ərazi icra nümayəndəliklərinə məxsus torpaq sahələrində 2800 ədədə yaxın müxtəlif növ ağac və gül kolları əkildi. Eyni zamanda çoxillik ağacların dibləri yumşaldıldı, gövdələri ağardıldı və səliqə-sahman işləri aparıldı.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov və hüquq mühafizə orqanlarının rəhbərləri iməcilikdə iştirak edərək ağac əkdilər.



# Düşmən məğlub olacaq

Berlinədək döyüş yolu keçmiş Əli Nəcəf oğlu Hüseynov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüş, Berlində Brandenburq darvazalarında avtoqraf yazmışdır.

1941-1945-ci illər müharibəsində Qələbənin 72 illik yubileyi ölkənin hər yerində olduğu kimi Lerik rayonunda da təntənə ilə qeyd olunur. Azərbaycan müharibə və 640 mindən şox oğul və qızını cəbhəyə yola salıb. Onların yazısı faşist işğalçılarına qarşı ağır döyüşlərdə həlak olmuş, çoxlu itkin düşən , yaralanan, əlil olmuşdur. Həmin dəhşətli müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130- dan çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Birinci8 Dünya müharibəsində Lerik rayonundan cəbhəyə yola salınan 6500 nəfərdən 1584 nəfər həlak olub, 3314 nəfər yaralanıb Qafqazdan.

Faşizmə qarşı mübarizədə arxa cəbhədə gecə-gündüz çalışanların əməyi hər cür tərifə layiqdir. Xalğımız arxa cəbhədə misilsiz əmək nümunələri göstərib, ordumuzun ehtiyaclarını ödəmək üçün fədakarlıq göstəriblər. Böyük Qələbəyə Bakı neftinin töhvəsi əvəzsiz olub. Azərbaycanlılar döyüş meydanlarında vuruşan, qələbə naminə cəbhəyə və ölkəyə kifayət qədər neft göndərirdilər, ərzaqla, isti geyimlə, dərmanla, digər zəruri avadanlıqlarla tmin edirdilər. Vətənin taleyi Qafqazda və Stalinqrad ətrafındakı döyüşlərdə həll olunurdu. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı hər yerdə diqqət mərkəzində idi.

9 may Qələbə Günü hər il Azərbaycanda böyük təntənə ilə qeyd edilir. Faşizm üzərində Qələbə günü Azərbaycanın göstərdiyi qəhrəmanlıq yada salınır. Dövlət başçısı İlham Əliyev hər il Qələbə Günü ərəfəsində olduğu kimi, bu ilin aprelin 24- də II Dünya müharibəsi iştirakçılarına "həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb və bu sərəncam icra olunub.

2016- cı ilin aprel döyüşlərində qazandığı qələbə gənclərin yüksək vətənpərvərliyini, ordumuzun gücünü, qüdrətini göstərdi. Həmin günlər Milli Ordumuzun əsgərləri doğma Vətən torpaqlarının hər bir qarışının bizim üçün nə qədər əziz olduğunu sübut etdilər.

Fərəhlə deməliyəm ki, aprel döyüşlərində Azərbaycan torpaqları uğrunda canından keçən şəhidlər və bu gün ön mövqedə dayanan igidlər babalarının keçdiyi zəfər yolunun davamçılarıdır. Gənclər bilməlidirlər ki, özgə torpağına göz dikənin müqəddaratı məğlubiyyətdir.

***Söhbət Fərziyev,***
***I qrup Böyük Vətən müharibəsi əlili, əmək veteranı.***

# 28 May - Respublika Günü münasibəti ilə ümumrayon tədbiri keçirildi

26 may 2017-ci il tarixdə Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında rayon icra hakimiyyəti başçısının, hüquq mühafizə orqanlarının rəhbərlərinin, idarə, müəssisə və təşkilat kollektivlərinin, ağsaqqalların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə 28 May - Respublika Günü münasibəti ilə ümumrayon tədbiri keçirildi.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilməsi ilə başlanıldı.

Tədbiri giriş sözü açan Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov bu günlərdə xalqımızın Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 99-cu ildönümünü təntənə ilə qeyd etdiyini bildirdi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ilə xalqımızın qədim dövlətçilik ənənələri bərpa edilmiş, insan hüquqlarının və azadlıqlarının təminatına, irqi, milli, dini, sosial bərabərsizliklərin ləğvinə, demokratik dövlət quruculuğunun həyata keçirilməsinə əsaslı şərait yaradıldığını qeyd etdi.

Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etmişdir ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir. 1991-ci ildə Azərbaycan yenidən müstəqilliyə qovuşdu. Müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldığı dövrdə - 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra ölkədə vəziyyət sabitləşdi. İctimai-siyasi asayiş təmin edildi, ölkədə dinamik inkişaf başladı. O illərdə başlanmış və bu gün uğurla davam etdirilən siyasi, iqtisadi və hüquqi islahatlar Azərbaycanda dövlətçiliyin əsaslarını möhkəmləndirdi.



Azərbaycanda gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsinə, əbədi və sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. Dövlətimiz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, ikitərəfli münasibətlərin inkişafında maraqlıdır. Müstəqil daxili və xarici siyasət yeridən, nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan Respublikası artıq təkcə regionda deyil, dünya miqyasda söz sahibi olan dövlət kimi tanınır. 2011-ci ildə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına 2013-2014-cü illər üçün üzv seçildi və bu, Azərbaycan dövlətinin beynəlxalq mövqelərini yüksək dərəcədə möhkəmləndirməsinin göstəricisi oldu. 2013-cü il fevralın 8-də ilk telekommunikasiya peykinin uğurla orbitə buraxılması ilə Azərbaycan Respublikası kosmik dövlət kimi tanındı. Bu gün ölkəmiz bir sıra beynəlxalq forumlara, dünyanın tanınmış siyasi xadimlərinin, elm adamlarının iştirakı ilə keçirilən beynəlxalq səviyyəli tədbirlərə uğurla ev sahibliyi edir. 2015-ci ildə Birinci Avropa Oyunları məhz Azərbaycanda keçirildi. 2016-cı ildə Bakı şəhəri Formula 1 Avropa Qran Pri yarışına və bu il mayın 12-dən 22-dək ölkəmiz daha bir mötəbər tədbirə - IV İslam Həmrəyliyi Oyunlarına uğurla ev sahibliyi etdi.

Son illərdə dövlətimizin dinamik inkişaf tarixindən məlumat verən natiq milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin qarşıdan gələn 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə bu il mayın 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzaladığını vurğuladı.

Tədbirdə Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini - Cəlil Baxşıyev Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında geniş məruzə etdi.

Məruzə ətrafında YAP Lerik rayon təşkilatının sədri Elxan Qənbərov və Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov çıxış etdilər.

# Faşizm üzərində Qələbənin 72 illiyi

***Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovun, rayonun hüquq mühafizə orqanlarının, idarə, təşkilat və müəssisə rəhbərlərinin iştirakı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 72-ci ildönümü münasibəti ilə ümumrayon tədbiri və müharibə veteranları ilə görüş keçirildi.***

***Öncə tədbir iştirakçıları Böyük Vətən və Qarabağ müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidələri ziyarət edərək, önündə gül dəstələri düzdülər.***



Sonra müharibə iştirakçıları ilə görüş Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında çay süfrəsi arxasında davam etdirildi.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək bayram münasibəti ilə müharibə veteranlarını təbrik etdi. İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin əldə edilməsində Azərbaycan xalqının əvəzsiz rolu, Azərbaycanlıların istər döyüş meydanlarında, istərsə də arxa cəbhədə göstərdikləri fədakarlıqlar barədə geniş məlumat verdi. Respublikamızı təmsil edən 176 mindən çox döyüşçünün orden və medallarla təltif edildiyini, 130 nəfərin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü bildirdi. 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində tarixi qələbənin əldə olunmasında leriklilərin də xidmətlərinin az olmadığını vurğuladı. Lerik rayonundan 6500 nəfərin cəbhəyə yola salındığını, onlardan 1584 nəfərin həlak olduğunu, 3314 nəfərin müxtəlif dərəcədə yaralandığını qeyd etdi. Ali Baş Komandan cənab İlham Əliyevin qayğı və diqqəti ilə ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü işlər nəticəsində Azərbaycan Ordusunun güclü orduya çevrildiyini, son illərdə cəbhə bölgəsində düşmənin təxribatçı əməllərinin qarşısının alınaraq layiqli cavab verildiyini diqqətə çatdırdı.

Azərbaycan xalqının istək və tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra 9 May - faşizm üzərində Qələbə gününün rəsmi dövlət bayramı səviyyəsində qeyd edildiyini, müharibə veteranlarına diqqət və qayğının artırıldığını, hər il Qələbə günü münasibəti ilə dövlət büdcəsindən müharibə veteranlarına birdəfəlik maddi yardımların verildiyini və Azərbaycan övladlarının İkinci Dünya müharibəsində göstərdikləri qəhrəmanlıqların gənc nəslə vətənpərvərlik nümunəsi olduğunu bildirdi.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin rəisi, Fəxrəddin Mirzəliyev, Qarabağ müharibəsi əlili Veysəl Məlikov çıxış edərək Böyük Vətən müharibəsi iştirakçılarını Qələbə Günü münasibəti ilə təbrik etdilər, onlara xoş arzularını bildirdilər.

Tədbirdə Veteranlar Təşkilatının sədri Hidayət Bəşirov, müharibə veteranlarından Daşdəmir Paşayev, Salam Cabbarov, Söhbət Fərziyev əmək veteranlarından Həmzə Vəliməmmədov, Musa Bədəlov çıxış edərək faşizm üzərində qazanılmış qələbə ilə Azərbaycan xalqının da fəxr etdiyini, bu günün unudulmaz tarixə çevrildiyini bildirdilər. Torpaqlarımızın işğal altında olduğu bir zamanda xalqımızın İkinci Dünya müharibəsindəki qəhrəmanlığının bayram edilməsi, oğul və qızlarımızın göstərdiyi rəşadətin təbliği gənclərimizin Vətənə məhəbbət ruhunda tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini qeyd etdilər. Belə qələbə gününü Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yaxın zamanlarda Qarabağ torpaqlarında, qədim Şuşa şəhərində qeyd edilməsini arzuladılar.

Veteranlar onlara göstərilən qayğı və diqqətə görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Onları unutmadığına, hər bir problemləri ilə maraqlandığına görə rayon icra hakimiyyətinin başçısına təşəkkür etdilər.



# Bir ömürlük xatirə

***Hər bir insan ona bəxş olunmuş ömrü yaşayır. İnsanın necə yaşaması ömrün uzun və qısalığı ilə deyil, dəyəri ilə ölçülür. Həmzə Mirələm oğlu Şıxəliyev 94 il ömür sürdü. Zəhmətlə dolu, fərqli bir ömür yaşadı, lakin heç vaxt uca dağlar qoynundan aralanmadı. Onun qaynar gənclik illəri, barıt qoxulu, fərəh dolu illəri heç də rahat keçməyib. Həmzə Şıxəliyevə həsr elədiyimiz oçerki müharibə illərindən başlayırıq. O illərdən ki, onun gənclik illərində, ömrün dolaylarında dərin iz buraxıb. Həmişə vəzifə borcunu məsuliyyətlə yerinə yetirib. Zabit şərəfini ləyaqətlə qoruyub.***

***Həmzə Şıxəliyevin döyüş yolu Mozdokdan başlansa da faşistlərin son sığınacağında Belində sona çatmışdı. Qələbədən sonra o Berlinə sahə komendantı təyin olunmuş, yüksək dövlət mükafatlarına layiq görülmüşdü, adı dillər əzbəri olmuşdu, generallar onun qəhrəmanlığı barədə xatirə memuarlarında fərəhlə söz açmışdılar.***

...1942-ci ilin payızı idi. Həmzə Şıxəliyev kənd sovetinin sədri, əmisi oğlu Feyruz işə Lerik rayon ictimai təminat şöbəsinin müdiri işləyirdilər. Onlar könüllü olaraq hərbi komissarlığa gedir, cəbhəyə yollanırlar. Tiflisdə Hərbi Komandirlər Məktəbin oxumağa göndərilirlər. Çünki hər ikisi savadlı və bacarıqlı idi, vəzifədən çıxıb gəlmişdi. Onların cəbhədə komandir olmağına ehtiyac vardı. Feyruz 223-cü milli atıcı diviziyasının, Həmzə isə 416-cı milli atıcı diviziyasının tərkibində müharibədə düşmənlə üz-üzə gəlirlər.

### Şimali Qafqaz od tutub yanırdı

Şimali Qafqazda, Mozdokdan başlanan döyüşlər daha şiddətli idi. Alman faşistləri böyük qüvvə ilə hücuma keçib. Şimali Qafqazı tezliklə işğal etməyi düşünürdülər. Düşmənin planını pozmaq üçün hər şey səfərbərliyə alınmışdı.

"OST" planına görə Hitler 1941-ci il sentyabr ayının sonuna qədər Bakı işğal olunmalı idi. Onların əsas məqsədi Bakı neftini almanların sərəncamına vermək idi. Elə bu böyük iştaha ilə də Hitlerin ad günü üçün bişirilən tortun üstündə Bakı şəhəri və Xəzər dənizi təsvir edilmişdi Tortun ətrafına toplaşmış alman zabitəri onun Bakı təsvir edilmiş hissəsini dilim kimi kəsmiş və Hitlerin boşqabına qoymuşdular.

Alman faşist işğalçıları neft Bakısını tuta bilmədilər. Çünki Hitlerin bu mənfur planının puç olması üçün Azərbaycan vuruşur, oğullarını səfərbər edir, mübarizə aparırdı. Bakı şəhəri döyüşən ordunun cəbhəxanalarından birinə çevrilmişdi. Bakıda "Katyuşa" raketi, "Srakin" pulemytu istehsal edilirdi. "Yak-3" qırıcı təyyarələri yığılırdı. Burada 130-dan çox silah və onların hissələri yığılırdı. Marşal Andrey Qreçko yazmışdı: "Azərbaycandan cəbhəyə tükənməz axınla yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı və ərzaqla dolu yük qatarları gəlirdi".

Bəli, Mozdok vuruşur, düşmənin ayaqları altında torpaq od tutub yanırdı. Leytenant Həmzə Şıxəliyevin tabeliyindəki cəsur əsgərlər döyüşdən-döyüşə bərkiyirdilər. Mozdok, Proxladnı, Georgiyevsk, Mineralnıe Vodının düşməndən azad olunmasında azərbaycanlı əsgərlər əsl igidlik göstərir, hər bir yaşayış məntəqəsi uğrunda canlarından keçirdilər.

1942-ci ilin soyuq dekabr ayı idi. Mozdok azad edildikdən sonra Taganqoq uğrunda şiddətli vuruşmalar gedirdi. İtkilər bahasına olsa da düşmən geri çəkilməyə məcbur edilirdi. Döyüşlərin birində Həmzə Şıxəliyev başından qəlpə yarası aldı. Çoxlu qan itirdi, onu hospitala çatdırdılar. Müalicəsi ilə məşğul olan tibb işçiləri onun sağlamlığını bərpa etdilər. Leytenant Həmzə Şıxəliyev yenidən vuruşan cəbhəyə qayıtdı...

### Xatirələrin izi ilə

Rayonda rəhbər vəzifələrdə işləmiş ziyalı Qəhrəman Əliyev və mən sağlığında Həmzə Şıxliyevə baş çəkməyə getmişdir. O, bizi görən kimi yerindən qalxdı, oturmağa yer göstərdi, çay gətizdirdi. Siqaret çəkməyindən bəlli oldu ki, o, darıxır, səhhəti onu



incidir. O, cəbhədən danışdı, döyüş yollarını müxtəlif anlarını, əks etdirən bir neçə albomla bizi tanış etdi, cəbhə dostlarını xatırladı. Qəhrəman Əliyev albomları maraqla nəzərdən keçirib dedi:

- Bunlar əməlli-başlı döyüş xronikalarıdır. Yazsan bir kitaba sığmaz. Eşitdiyimizə görə siz vuruşan cəbhədə olarkən görkəmli dövlət xadimi Əziz Əliyevlə görüşmüsünüz. Bu barədə xatirənizi dinləmək bizim üçün maraqlıdır.

### Görkəmli dövlət xadimi Əziz Əliyev əfsanəvi şəxsiyyət idi

- Əziz Əliyev Dağıstana çox mürəkkəb bir dövrdə - 1942-1948-ci illərdə başçılıq edib. O Dağıstanın inkişafı üçün böyük işlər görmüşdür. Taqanroqda düşmənə qarşı vuruşan müddətdə Əziz Əliyevlə azı iyirmi dəfə görüşmüşəm. O, bizimlə tez-tez görüşə gələr, əsgər və zabitlərlə söhbət edər, onları qələbəyə ruhlandırardı. Əziz Əliyev cəbhəyə dəfələrlə ərzaq yardımı gətirərdi. O, hündürboy, enlikürək igid, siması işıqlı, mehriban bir şəxsiyyət idi, həmişə şıq geyinərdi.

Çudak çayının yaxınlığında idik. Bizə dedilər ki, Əziz Əliyev gəlib sizinlə söhbət edəcək. Biz əyin-başımızı sahmana saldıq. Əziz Əliyev zabitləri bir yerə yığdı, müşavirə keçirtdi. O dedi ki, 77-ci dağ atıcı diviziyasının komandirləri ilə görüşmüşəm. Mənə rus zabitləri deyirlər ki, azərbaycanlı əsgərlər rusca danışa bilmirlər, zabitlər zəif komanda verirlər. Bu sözləri eşitmək mənə ağırdır.

Əziz Əliyev üzünü mənə tərəf tutub dedi:

- Cavan oğlan, rotanı çək ərik ağaclarının arxsına və rotanı hücuma göndər, mən də müşahidə edirəm.

Mən rotanı hücuma hazır vəziyyətə gətirmək üçün rusca gur səslə komanda verdim. Serjantları yanıma çağırıb xəritəni açdım, olduğumuz mövqeyi göstərdim. Necə mövqe tutmağı, vuruşmağı, coğrafi şəraiti, mövcud vəziyyəti, məqsədimizi, düşmənin olduğu yeri göstərdim, hansı qüvvəyə malik olduğunu başa saldım.

Əziz Əliyev məmnun qalmışdı, üzü gülürdü. O, Həmzə Şıxəliyevə sual verdi:

- Niyə Azərbaycan dilində komanda vermirsən?

- Bütün qanunlar və sərəncamlar rus dilindədir. Əsgərlərin çoxu rus və başqa millətlərdəndir, ona görə də rus dilində danışdım, qoy bizimkilər də öyrəşsinlər.

Həmzə Şıxəliyevin sərrast cavabları, çevikliyi, hərbi savadı, hərbi komandir kimi hazırlığı Əziz Əliyevi razı salmışdı. O, adyutantını yanına çağırdı və dedi: "gətirdiyim mükafatları bura gətir". Bir qol saatını və bahalı maldan olan şalvarı mənə hədiyyə etdi və



dedi:

- Sağ ol, eloğlu üzümüzü ağartdın, başımızı ucaltdın. Sonra bütün bunları müşahidə edən yüksək çinli rus zabitinə üzünü çevirərək dedi:

- Bəs deyirdin azərbaycanlı komandirlər döyüş vaxtı əmr verə bilmirlər. İndi gördünmü necə əmr verənlərimiz var?

Əziz Əliyev bölmənin əsgər və zabitlərinə qələbə arzuladı, onlara möhkəm dayanmağı, qorxmamağı, faşistləri əzişdirməyi, torpaq uğrunda can əsirgəməməyi, Azər-



baycan əsgərinə şanlı döyüş ənənələrinə sadiq qalmağı tövsiyə etdi, xudahafizləşib getdi...

Böyük fəxrlə qeyd etmək lazımdır ki, vaxtilə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi işləmiş görkəmli dövlət xadimi Əziz Əliyevi yaxşı xatırlayırlar. O, ağır müharibə illərində həmişə Dağıstanın gələcəyi barədə düşünən nadir insan idi. Dağıstana doğma ölkəsi kimi yanaşırdı. O, dağıstanlılara doğma qardaşları kimi baxırdı, onların rifahı naminə əlindən gələni edirdi.

Mahaçqalada Əziz Əliyevin adını daşıyan küçədə onun abidəsinin təntənəli açılışı olub. Əziz Əliyevin oğlu, Azərbaycan Milli Onklogiya Mərkəzinin direktoru, akademik Cəmil Əliyev Mahaçqalada ucaldılmış bu abidənin qardaş xalqlarımız arasında dostluğun rəmzi olmasını vurğulayıb. Deyib ki, atası Əziz Əliyev ömrü boyu Dağıstan haqqında xatirələrlə, sevgi hissi ilə yaşayıb...

### Cəbhədən-cəbhəyə

Həmzə Şıxəliyev müharibə illərində Mogilyov Piyadaların Hərbi Məktəbində təhsil alır, 5-ci zərbə ordusunun 248-ci diviziyasının tərkibində kapitan rütbəsi ilə rota komandiri təyin olunur. Odessanın alman-faşist işğalçılarından azad edilməsində igidlik göstərir. Şəhər hərbərliyi Odessanın alman faşistlərindən azad edilməsinin 45 illiyi şərəfinə Həmzə Şıxəliyevə şəhərin fəxri vətəndaşı adını verib.

Polşanın azad edilməsində göstərdiyi şücaətə və qəhrəmanlığa görə Ali Baş Komandanın təşəkkürünü alır və "Varşavanın azad edilməsinə görə" medalına layiq görülür. Berlinin alınmasında qəhrəmanlıq göstərir. O, Lenin ordeninə, "Qırmızı Ulduz", Böyük Vətən Müharibəsinin I və II dərəcəli ordenlərinə, "Berlinin alınmasına görə", "Almaniya üzərində qələbəyə görə" və "Böyük Vətən Müharibəsində qələbəyə görə" yubiley medalları ilə, "Oktyabr inqilabı" ordeni ilə "Rəşadətli əməyə görə" Lenin yubiley medalı ilə və digər mükafatlarla təltif edilir. 1983-cü ildə Moskvanın "Hərbi nəşriyyatı" "Berlində sonuncu düşərgə" adlı kitab nəşr etmişdir. Müəllifi Sovet İttifaqı Qəhrəmanı general-leytenant İvan Pavloviç Roslı kitabda 9-cu atıcı rotanın komandiri kapitan Həmzə Şıxəliyev barədə ürək sözlərini qeyd etmişdir. Onun qorxmaz və cəsur zabit olmasını, siyasi dünyagörüşünü yüksək qiymətləndirmişdir.

Müharibə qəhrəmanı, ordenli kapitan 1947-1948-ci illərdə Lerik qəsəbə (indi şəhərdir) Sovetinin sədri vəzifəsində çalışır. 1948-1952-ci illərdə keçmiş SSRİ Tədarük Nazirliyinin Lerik rayonu üzrə tədarük müvəkkili təyin olunur. O Ağdam Kənd Təsərrüfatı Texnikumunu və Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirir.

1952-ci ildə Lerik rayon Kənd Təsərrüfatı şöbəsinin müdiri təyin olunan Həmzə Şıxəliyev "Otuzminçilər" hərəkatına qoşulur. O, iqtisadi cəhətdən geridə qalan Siyov kəndindəki Stalin adına kolxoza sədr seçilir. Təsərrüfatın qabaqcıllar sırasına çıxması üçün əlindən gələni əsirgəmir, kənd camaatını səfərbərliyə alır, rifah halını yaxşılaşdırır.

1960-cı ildə Həmzə Şıxəliyev 19 kəndi əhatə edən təsərrüfata rəhbərlik edir. Zuvandda meyvə bağlar salınır, heyvandarlıq kompleksi tikilir. Onu Lerik rayon Sovetinin deputatı, büro üzvü seçirlər. Həmzə dayının alim dostları çox idi. Onların arasında dünyaşöhrətli təbiətşünas alim, akademik Həsən Əliyevin adını hörmətlə çəkərdi Həmzə dayı. Alimin təsərrüfatda badam bağları salmaq təşəbbüsü yaxşı səmərə vermişdi. Akademik İmam Mustafayev Həmzə Şıxəliyevlə duz-çörək kəsmişdi, elmi tədqiqat əsərlərində Zuvandda bitən çovdar barədə geniş bəhs etmişdi.

Həmzə Şıxəliyev haqqında bir ömürlük xatirəsi bitib-tükənmək bilmir. Onu və həyat yoldaşı Roza xanımı kənd adamları böyük hörmətlə və ehtiramla yad edirlər. Oğlu Alim həqiqi mənada alimdir, Moskvada ürək çatışmazlığına dair elmi işi uğurla müdafiə edib, tibb elmləri namizədi alim dərəcəsini alıb. Onun təklif etdiyi yeni üsul bəyənildi və praktikada tətbiq olundu.

"Ürək çatışmamazlığının müalicəsi" mövzusunda monoqrafiyanın, bir neçə elmi məqalənin müəllifidir. Hazırda "Əhmədli" özəl klinikasının baş həkimidir. İnsanların cansağlığı keşiyində durmaqdan böyük zövq alır.

O, ürəklərin dostu, insanların qayğıkeşidir. Ən əsası, atası Həmzə Şıxəliyevin adını həmişə uca tutur. Ucalığa gedən yol insanın şərəf və ləyaqətindən keçir.

***İdris Şükürlü,***
***Respublikanın Əməkdar jurnalisti***

# Ərzaq təhlükəsizliyinin qarantı aqrar sektorun inkişafıdır

***Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə kənd təsərrüfatının inkişafına çox ciddi diqqət və qayğı ilə yanaşmışdır. Ulu öndər Azərbaycanın aqrar sektorunun bugünkü inkişafının təməlini qoymuşdur.***

***Bugünkü inkişafın strateji əhəmiyyətə malik bir sıra qanunların qəbul olunmasına, proqram və layihələrin həyata keçirilməsinə nail olmaqla, Ulu öndər deyirdi: «Bir çox məmurlar mənə aqrar islahatlar aparılmasının riskli olduğunu söyləyirdilər». Buna baxmayaraq, Ulu öndər aqrar islahatların həyata keçirilməsi barədə qərar vermişdir. Zaman göstərdi ki, ölkəmizdə aqrar islahatların vaxtında həyata keçirilməsi ən düzgün qərar idi.***

Məhz həmin islahatların nəticəsitndə bu gün bir çox kənd təsərrüfatı məhsulları üzrə daxili tələbatımızı yüksək səviyyədə təmin edə bilirik. Ötən ilin yekunlarına görə, istehlak etdiyimiz mal ətinin 94, qoyun ətinin 99, süd və süd məhsullarının 88, yumurtanın 99 faizi ölkəmizdə istehsal olunur. Tələbatımızın kərə yağı üzrə 76, buğda üzrə 53, arpa üzrə 102, qarğıdalı üzrə 71 faizi yerli istehsal hesabına ödənilir. Bu rəqəmlər onu göstərir ki, əsas hədəfə - idxaldan xilas olmağa elə də çox qalmayıb.

### Ərzaq təhlükəsizliyi strateji məsələdir

Qloballaşmanın dərinləşməsi, təbii ehtiyatların həddindən çox istismarı, iqlim dəyişikliyi əhalinin yüksək artımı ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün daha böyük əzmlə çalışmağı tələb edir. Prezident İlham Əliyev demişdir: «… ərzaq təhlükəsizliyi bizim üçün prioritetdir… Çünki ərzaq təhlükəsizliyi bundan sonra dünya üçün ən böyük məsələ olacaq, o ölkələr ki, ərzaq təhlükəsizliyini təmin etməyib, onlar böyük problemlərlə üzləşəcəklər».

Elə bir toplantı yoxdur ki, Prezident orada respublika əhalisinin ərzaqla etibarlı təminatı məsələsinə toxunmasın, aidiyyəti təşkilatların diqqətini bu məsələyə cəlb etməsin.

Məlumdur ki, torpaq kənd təsərrüfatı istehsalında istifadə olunan əsas vasitədir. Ərzaq təhlükəsizliyi problemi həll etməkdə əsas vəzifə mövcud torpaqlardan səmərəli istifadədən asılı olur. Hər hektardan daha çox və keyfiyyətli məhsul əldə etmək qarşıda duran başlıca vəzifələrdəndir. Rayonumuzda 13645 hektar əkinə yararlı torpaq sahəsi vardır. Bunun 11422 hektarı əkin sahələri təşkil edir. Ötən il əvvəlki ilə nisbətən 716 hektar çox dənli və dənli paxlalı bitkilər əkilmiş, məhsul istehsalı artırılmışdır. 2017-ci ilin məhsulu üçün 3377 hektar sahədə şum aparılmış, 2016-cı illə müqayisədə 923 hektarda çox payızlıq buğda əkilmişdir. Keçən il uzun fasilədən sonra rayonumuzda 10 hektarda tütün, 2 hektarda isə günəbaxan bitkisi əkilmişdir.

Lerik rayonunun iqtisadiyyatında heyvandarlıq başlıca yer tutur. Rayon üzrə 37549 baş uzunbuynuzlu, 127071 baş xırda buynuzlu qaramal vardır. 2016-cı ildə ət istehsalı 5286,1 ton6, süd istehsalı 15691,7 ton, yun istehsalı 231 ton, yumurta istehsalı 7335 min ədəd olmuşdur. Ötən illə müqayisədə iri buynuzlu mal-qaranın sayı artmış, diri çəkidə ət istehsalı 0,3 faiz, yun istehsalı



0,9 faiz artmışdır.

Bütün bu göstəricilərlə kifayətlənməyən kənd əməkçiləri, fermerlər ehtiyat mənbələrini işə salır, ərzaq bolluğu yaratmaq üçün istehsalın həcmini artırmaq üçün daha səmərəli işləyirlər.

Kələxan, Blaband, Cəngəmiran, Singədulan, Siyov, Livədirgə ərazilərində əkinçiliyə, xüsusi ilə də taxılçılığa böyük diqqət yetirilir. Lakin bu sözləri Veri, Orand, Nuravud, Pirasora və Tulu-Conu əraziləri haqqında demək olmaz. Həmin kəndlərdə taxılçılığa ögey münasibətə son qoyulmalı, fermerlər və fərdi təsərrüfatlar üçün şərait yaradılmalıdır ki, torpaqlar boş qalmasın, kənd əməkçilərinin süfrəsindən yerli istehsaldan olan məhsullar əskilməsin, istehsal olunmuş məhsuldan bazara çıxarmaq mümkün olsun.

Yazının əvvəlində qeyd etdik ki, ölkə başçısı Prezident İlham Əliyev iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq üçün qeyri-neft sektoruna, həmçinin, kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirməyi zəruri hesab edir. Artıq rayonumuzda da bu sahəyə diqqət artıb. Bu il 25 hektarda tütün əkmək nəzərdə tutulmuşdur. Bunun 15 hektarı icra olunmuşdur. Rayonun müxtəlif ərazilərində 60 min ədəd fındıq tingi basdırılmışdır. Digər gəlir gətirən məhsulların əkininə diqqət artmışdır.

### Problemlər həllini gözləyir

Respublikamızda yeni iqtisadi şəraitə keçid mərhələsində Lerikin bir sıra kənd təsərrüfatı sahələrinin inkişafı zəifləmişdir. Biz respublikanın kənd təsərrüfatı nazirliyinə bir sıra təkliflər hazırlayıb göndərmişik. İlk növbədə, rayonda toxumçuluğu inkişaf etdirmək məqsədilə taxıl toxumçuluq dövlət müəssisəsi yaradılmalıdır. Tütünçülüyün inkişaf etdirilməsi məqsədilə müasir tütünqurutma və tütün qəbulu məntəqələri yaradılmalıdır.

Rayonumuza uzun illər təhkim olunmuş 25345 hektar qış otlaq sahələri 2006-cı ildə alınaraq qonşu Biləsuvar, Neftçala və Cəlilabad rayonlarına qaytarılmışdır. Neftçala və Biləsuvar rayon icra hakimiyyətləri fermerlərlə və fiziki şəxslərlə uzunmüddətli müqavilələr bağlayaraq qış otlaq sahələrini yenidən icarəyə vermişlər. Lakin 2016-cı ildən başlayaraq bağlanmış müqavilələrə birtərəfli qaydada xitam verilməsi barədə icarədarlara xəbərdarlıq məktubları verilmişdir. Bağlanmış müqavilələrə xitam verilərsə rayonda qoyunçuluğun inkişafına mənfi təsir göstərəcəkdir. Təklif vermişik ki, qış otlaq sahələri yenidən rayonumuza təhkim edilməlidir.

Heyvandarlığı inkişaf etdirmək, ət və süd istehsalını artırmaqdan ötrü 50 və 100 başlıq iribuynuzlu heyvandarlıq təsərrüfatları yaradılmalıdır. Arıçılığı inkişaf etdirməkdən ötrü güzəştli şərtlərlə kreditlər verilməli, bal emalı və qablaşdırılması sexi tikilməlidir. Müasir suvarma sistemləri qurulmalıdır. İstehsal olunmuş kənd təsərrüfatı məhsullarının tədarükü və saxlanılmasından ötrü məntəqələr yaradılmalıdır və s.

Göründüyü kimi, qazanılmış uğurlar, qarşıda duran vəzifələr, həlli vacib olan problemlər həllini gözləyir.

Ölkənin ixrac potensialında aqrar sektorun çəkisini artırmaqdan ötrü lerikli fermerlər, kənd təsərrüfatı işçiləri öz töhfələrini verəcək, torpağın əsl sahibləri olduqlarını əməli işlərində nümayiş etdirəcəklər.

***Mahmud ZAİDOV,***
***Lerik Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi***

# Unutmadığım Gülağa Rüstəmov

***Elə insanlar var ki, onlar dünyasını dəyişdikdən sonra tez unudulur, onu yalnız yaxınları xatırlayırlar. Dəyərli insan, sədaqətli dost, çətin günün adamı, təcrübəli pedaqoq, mehriban ailə sahibi, hörmətli dostum, həmişə təbəssümlə xatırladığım Gülağa Rüstəmov elə bir şəxsiyyətdir ki, onu Lerik rayonunun hər bir guşəsində, uzaq ünvanlarda həmişə yad edir, yaxşılığından danışırlar, onunla bağlı maraqlı xatirələr söyləyirlər. Xoşbəxt o insandır ki, özündən sonra iz saxlaya bilir, işıqlı əməlləri, maarifçilik ideyaları nəsildən-nəslə ötürülür, o, unudulmur. Dostuim Gülağa Rüstəmov da belələrindən idi…***

Mən 1956-cı ildə pedaqoji institutu bitirib Lerik qəsəbə (indi şəhərdir) orta intenat məktəbinə müəllim təyin olundum. Yaşımızda çox fərq olmasa da onunla dost idik. Ağıllı məsləhətləri, səbirli və təmkinli olması, səmimiyyəti, pedaqoji ustalığı, daim yenilikləri öyrənmək həvəsi ilə yaşaması həmyaşıdlarına nümunə idi. Cavan olmasına baxmayaraq, bir sıra üstün cəhətlərinə görə həm işlədiyi sahədə, həm də el-obada yaxşı hörmət qazana bilmişdi…

Bir dəfə xudmani bir çayxanada oturub pürrəngi çay isir, olub-keçənləri yada salır, gələcək arzularımızdan danışırdıq. İnstitutu uğurla qurtarmağımdan, elmi axtarışlarımdan, dünyanı yaşadan canlı təbiətə, bitki aləminə münasibətimdən, alim olmaq istəyimdən Gülağanın xəbəri var idi. O, nəyisə xatırlayıb diqqətlə mənə baxdı və dedi:

- Musa, əgər həqiqi dostluq edriksə, sən gərək mənim məsləhətlərimə qulaq asasan. Məsləhətli don gen olar, - deyiblər. Sən bu göbələkləri yığıb neynirsən?

Mən cavab verdim:

- İstəyirəm müxtəlif göbələkləri yığıb onların xüsusiyyətləri barədə elmi araqşdırma aparım, adamlara onların xeyrini və zərərini çatdırım. Axı, göbələkdən zəhərlənmələr çox olur.

Gülağa balla çay içirdi. O, gülümsəyərək dedi:

- Lerik rayonu arıçılıq üçün çox münasibdir. Sən gəl arıçılıqdan elmi iş yazıb, alim ol. Arıçılıq məhsullarının tayı-bərabəri yoxdur. Xalis bal bir sıra xəstəliklərin dərmanıdır, təbabətdə əvəzedilməzdir…

Sonralar qismət oldu, «Göbələklər təbiətin ecazkar əlamətidir» adlı kitab-ümkmilikdə isə arıçılığa və xalq təbabətinə dair 16 kitab yazıb əhaliyə payladım.

Lakin Gülağa Rüstəmovun ağılabatan məsləhətləri karıma gəldi. Mən arıçılıq üzrə elmi iş aparldım. Hətta arılar üzərində apardığım təcrübələr moskvalı elmi rəhbərimi təəccübləndirdi, o maraqlanıb Lerikə gəldi, müdafiəmdə iştirak etdi, məni Zoologiya İnstitutunun alimlərinə tərifədi. Ancaq mən həmin institutda qalıb işləyə bilmədim, buna ailə vəziyyətim imkan vermədi…

Gülağa müəllim Lerik rayon təhsil şöbəsində Həmkarlar Təşkilatının sədri işlədiyi illərdə o, həmişə haqqı-ədaləti hər şeydən üstün tutub. Pedaqoji sahədə çalışanlara diqqət və qayğısını əsirgəməyib. Onların cansağlığının qorunması, əməyinin mühafizəsi, mübahisəli məsələlərin qanunauyğun həlli, iş şəraitinin yaxşılaşdırılması üçün əlindən gələni əsirgəməyib. Onun uzunmüddətli və qüsursuz xidməti rəhbərliyin diqqətindən yayınmayıb. Elə buna görə də hörmət-izzət sahibi olub, fəaliyyəti həmişə həmkarlarına nümunə göstərilib.

Gülağa müəllim Lerik Rayon Təhsil Şöbəsinin müdiri təyin olundu. O, əvvəllər necəydisə, müdir işləyəndə də eləcə qaldı. Bizə həssas münasibətini davam etdirdi. Lerik rayonunda təhsil sahəsində uğurların sayı artdı, gənclərin ali təhsil almasında, kadrların hazırlanmasında, işlə təmin olunmasında fədakarlıq göstərdi. Bu hesaba yerli kadrların sayı artdı.

Yaxşı yadımdadır, Gülağa Rüstəmov məni otağına çağırıb dedi:

- Səni yuxarı siniflərdə buraxılış imtahanları götürmək üçün əmr vermişəm. Çayruda gedəcəksən.

Mən etiraz etmədim. Qəbul imtahanları uğurla keçdi. Gülağa müəllim soruşdu:

- İmtahan götürdüyün buraxılışdan ali məktəbə daxil olan olarmı?

Mən dedim:

- İki-üç nəfər şagird var, onlar əla oxuyurlar. Qızlardan da yaxşı oxuyan var, ancaq inanmıram valideynləri onların oxumağına razılıq verə.

- Qəm çəkmə, Musa, vaxt gələcək, qızlar oxuyub ali təhsil alacaqlar, məktəblərdə dərs deyəcəklər, həkim işləyəcəklər.

Doğrudan da Gülağa müəllimin dedikləri həqiqətə çevrildi. Qızlar müxitəlif sənətə yiyələndilər, istehsalatda çalışdılar, orden-medal aldılar, deputat seçildilər, ev-eşik sahibi oldular. Bu işdə Gülağa müəllimin zəhməti az olmadı. O, yetirmələrinin uğurlarına sevinər, «onlar başucadığımızdır» deyərədi.

Mən 1971-ci ildə elmi işimi uğurla müdafiə etdim, biologiya elmləri namizədi alimlik dərəcəsini aldım. Elmi işimdə arıçılığın inkişaf perspektivlərini ətraflı şərh etdim, təkliflərimi verdim. Rusiyalı alimlər elmi işin nəticələri ilə tanış oldular, irəli sürdüyüm elmi təklifləri bəyəndilər. Çoxlu məqalələrim, 16 kitabım çap olundu. Lerikdə mənim təşəbbüsümlə ixtisaslaşdırılmış arıçılıq təsərrüfatı yaradıldı. Primitiv şəkildə saxlanılan arı pətəkləri ilk dəfə olaraq toxnma səbətlərdən müasir tipli arı qutularına köçürtdük. Bu barədə respublika qəzetləri yazdılar.

Uğurlarıma ən çox sevinənlərdən biri də Güdlağa Rüstəmov oldu. Hərdən keçmiş günləri yada salır, mənə verdiyi məsləhətləri xatırlayırdı, sevinirdi.

Mən onun səmimiyyətinə, ürəyiaçıqlığına inanırdım. Gülağa müəllimə xalis bal payı göndərməyi də unutmurdum. O, həmişəki kimi təbəssümlə minnətdarlıq edər, «sənin balından olmaz» deyərdi.

Mən eşitdim ki, sevimli dostum, həmişə xatırlanan ziyalı, nurani insan Gülağa Rüstəmov barədə kitab yazılır, çox sevindim. Çünki o, hər cür tərifə, kitaba layiqdir. Bu qeydləri məmnuniyyətlə qələmə aldım, zənnimcə boğazdan yuxarı söz deməmişəm.

Allah onu rəhmət eləsin, məzarı nurla dolsun!



***Hacı Musa BƏDƏLOV,***
***Biologiya üzrə fəlsəfə doktoru, Prezident təqaüdçüsü***

# Uşaqları peyvənddən kənarda saxlamayın



**Etibar Həşimov, Rayon pediatrı, Ali dərəcəli həkim, Respublikanın Əməkdar həkimi.**

Uşaqları peyvənddən kənarda saxlamaq təkcə ailə üçün deyil, bütün cəmiyyət üçün qorxuludur. Uşaqların uşaq infeksiyalarından qorumaq üçün ən unikal yol uşaqlar arasında aparılan immunizasiya (peyvəndləmə) işidir. İl ərzində müxtəlif səbəblərdən (xəstəliyi ilə əlaqədar, yaşayış yerinin dəyişməsi və s.) peyvənddən kənarda qalırlar.

Ölkəmizdə hər il aprel- may aylarında belə uşaqlar Avropa immunlaşdırma həftəsinə (RİH) cəlb olunurlar , onlar arasında peyvəndləmə işi aparılır.

RİH 19-20 sentyabr 2006- cı ildə Kopenhagendə UST- nin (Ümumdünya Səhiyyə Təşkilatının) Avropa regional bürosunda keçirilmiş iclasın hesabatına əsasən keçirilir. Rayonumuzda bu iş maksimum səviyyədə həyata keçirilir.

Son illərin hadisələri göstərir ki, Avropa ölkələrində o cümlədən bizdə də poliomelitin ləğv olunması bir çox qorxulu infeksion xəstəliklərin- qızılça, məxmərək, tetanus, göy öskürək, difteriya və s. kəskin surətdə azalması tibb işçilərində, valideyinlərdə bir qədər arxayınçılıq yaratmışdır. Peyvəndlərin vurulmasında intervallar pozulur, səbəbsiz əks göstəricilərlə uşaqlara peyvənd vurulmur. Tibb işçilərinin zəif, bəzən əks təbliğatı (peyvənddən sonra uşaqda qıc olmalar olar, bir çox hallar qorxuludur, gələcəkdə sonsuz olar və s.), valideynlərin səhlənkarlığı, peyvənd təqviminin və intervalları bilməmək, əhalinin miqrasiyası və s. səbəblərdən uşaq peyvənddən kənarda qala bilər.

Hər bir tibb işçisi xüsusilə sahə həkimləri bu sahədə geniş səhiyyə maarifi işi aparmalıdırlar ki, bir nəfər uşaq da peyvənddən kənarda qalmasın.

Bildiyimiz kimi bütün infeksion xəstəliklərin canlı mikroorqanizmlər (mikroblar və viruslar) törədir. Mikroorqanizmlər insan bədənində (makroorqanizmdə) yaşamaqla həyat fəaliyyəti 4 dövrə bölünür.



Birinci yatma dövrü. Bu bir neçə il çəkir. Məsələn qızılca virusu 3-4 il, difteriya çöpləri 5- 6 il və s. Bu dövrdə valideyin və tibb işçilərində arxayınçılıq yaranır (onsuzda ingfeksiya nə ölkədə, nə rayonda var, deyə belə düşünürlər).

İkincisi, oyanma dövrüdür. Tibb dilində buna inkubasion (gizli) dövr deyilir. Bu dövr müxtəlif infeksion xəstəliklərində müxtəlif olur. Məsələn qızılcada 9- 11 gün, infeksion hepatitlərdə 50- 60 gün və s. oyanma dövründə artıq mikrob yuxundan oyanır, makroorqanizmə (insana) hücuma hazırlaşır.

Üçüncü dövr, hücum dövrüdür. Hansı orqanizmdə immunitet yoxdur (peyvənd almayıb) və ya immunitet zəifdir (peyvəndləri yarımçıq alıb) tez hücuma məruz qalır və xəstəliyə tutulur.

Mikroorqanizmli makroorqanizmin arasında həyat uğrunda mübarizə gedir.

Dördüncü, sönən dövr. Artiq mikroorqanizm öz işini görüb geri çəkilir, yatmağa hazırlaşır. Ona görə peyvənd işi zəif aparılanda infeksiya 3, 5, 6 ildən bir baş verir.

Tibb işçilərimiz əsas işini yatan dövrdə görməlidirlər. Çünki bu dövrdə müdafiə olunmaq makroorqanizmə qarşı lazımi müdafiədici tədbirlər görmək (immunizasiya işi) başqa dövrlərə nisbətən qat- qat asandır.

AİH ilə əlaqədar doğum evlərində qadın və uşaq məsləhətxanalarında, poliklinikalarda, məktəblərdə, uşaq baxçalarında, bütün tibb müəssisələrində gənuş söhbətlər, çıxışlar olmalı, yerli icra nümayəndələri və digər ictimai qurumlar bu işə cəlb edilməlidir ki, hər hansı səbəblərdən peyvəndlərin kənarda qalan və ya peyvənd intervalı pozulmuş uşaqlar mütləq peyvəndə cəlb edilsinlər.

Əziz valideyinlər, əgər uşaqlarımızı, ailənizi, cəmiyyətimizi və gələcəyimizi sağlam, gümrah görmək istəyirsinizsə körpələrinizə peyvənd vurmağı unutmayın və bu işdə səhlənkarlığa yol verməyin.

# Kazımov Məhərrəm Yəhya oğlu



Müəllim, dəyərli ziyalı və xeyirxah insan Kazımov Məhərrəm Yəhya oğlu Lerik rayonunda dünyasını dəyişmişdir.

Kazımov Məhərrəm Yəhya oğlu 1 mart 1938- ci ildə Lerik rayonunun Qışlaq kəndində anadan olmuşdur. O, 1946- 1952- ci illərdə Qışlaq kənd yeddillik, 1952- 1956- cı illərdə Lerik orta məktəbində oxumuşdur.

1958- ci ildə Lənkəran Pedoqoji Texnikumunu bitirmişdir.

1958- 1960- cı illərdə Barzavu kənd yeddillik məktəbində müəllim vəzifəsində çalışmışdır. 1960- 1966- cı illərdə BDU-nun filologiya fakultəsində təhsil almışdır.

1961- ci ildən indiyə kimi Lerik qəsəbə orta internat məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsində işləmişdir.

Məhərrəm Kazımov Azərbaycan müəllimlərinin VI.,VII, VIII (1978, 1987, 1998). Ümumittifaq müəllimlərinin IV qurultaylarının (1988), xalq təhsili işçilərinin respublika konfransının (1988) nümayəndəsi olmuş, Azərbaycan Pedoqoji Cəmiyyətinin I, II, III, IV qurultaylarında iştirak etmişdir.

1974- cü ildən Azərbaycan Pedoqoji Cəmiyyəti Lerik Rayon şöbəsinin sədri, respublika yaradıcı müəllimlərinin Mərkəzi Şurasının üzvü olmu.dur.

M.Kazımov 1991- ci ildə keçirilmiş "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qaliblərindən olmuşdur. "Qabaqcıl maarif xadimi" (1973), "Baş müəllim" (1978), "Metodist müəllim" (1989), "Ali kateqoriyalı müəllim" (1994), "Əməkdar müəllim" (1998) adlarına layiq görülmüş, Azərbaycan Respublikası Ali Sovetinin (1978) və Təhsil Nazirliyinin Fəxri fərmanları (1971, 1999), "Şərəf nişanı" ordeni (1981), "Əmək veteranı" medalı (1983) ilə təltif olunmuşdur. "Ana sözü" "Azərbaycan müəllimi" qəzetlərində onun haqqında oçerklər dərc olunmuşdur. 10- dan çox elmi- meyodik əsərin müəllifi idi.

Tanınmış pedaqoq Məhərrəm Kazımov yaxınlarının, müəllim yoldaşlarının yetirmələrinin, rayon ictimaiyyətinin xatirəsində uzun müddət yaşayacaqdır.

# Əmək müqaviləsinin rəsmiləşdirilməsi barədə

**Hörmətli vergi ödəyicisi!**

Bildiririk ki, Əmək Məcəlləsinə əsasən işəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalıdır. Əmək müqaviləsinin bağlanması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (https: // WWW.e-qov.az-az-ogin? Return- az- servis- read- 3188) əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsi kimi müəyyən edilmişdir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənlərin və ya onların səlahiyyət verdiyi şəxslərin gücləndirilmiş elektron imzası, o cümlədən ASAN İmza olmalıdır. Asan İmza sertifikatının alınması üçün ASAN xidmət mərkəzlərinə və ya Vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Xatırladaq ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontrakt) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58. 10-cu , İnzibati Xətalar Məcəlləsinin 192.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Belə ki, Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslər hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər min manatdan üç min manatadək miqdarda , vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilir.

Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yeddi min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetməilə cəzalandırılır. Eyni əməllər təkrar törədilrikdə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 162-1-ci maddəsinin "Qeyd" hissəsinə əsasən həmin maddədə "xeyli sayda" dedikdə, on nəfər və ondan çox olan işçilərin sayı nəzərdə tutulur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

*Vergilər Nazirliyi.*

# Narkotiklərə yox deyək!

Lerik Rayon İcra Hakimiyyətinin, Lerik Rayon Polis Şöbəsinin, Lerik Rayon Gənclər və Turizm İdarəsinin və Lerik Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə M. Bağırov adına Lerik şəhər 3 saylı tam orta məktəbdə "Narkotiklərə yox deyək!" mövzusunda toplantı keçirilmişdir.

Toplantıda Lerik RİH hüquq şöbəsinin müdiri Araz Quliyev, Lerik Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Hüseynəli Məlikov, Lerik Rayon Gənclər və İdman idarəsinin rəisi Natiq İsaqov, Lerik Rayon Təhsil şöbəsinin əməkdaşı Mehman Rəcəbov çıxış etmiş, bəşəri bəlaya çevrilmiş və "ağ ölüm" adı almış, insanların şirin həyatına zəhər qatmış, eyni zamanda onları cinayətkarlığa sürükləyən narkomaniya və narkomanlığın zərərindən danışmışlar. Onlar çıxışlarında xüsusi olaraq vurğulamışlar ki, narkomaniya gənclərin həyatında bir sıra fəsadlar törədir, onları cinayətkarlığa sövq edir, ictimai- siyasi həyatdan, təhsilindən, işləməkdən, sağlamlıqdan uzaqlaşdırır. Qeyd edilmişdir ki, gənclər arasında qabaqlayıcı tədbirlər görülməli, onların təhsilinə diqqət artırılmalı, məşğulluğu təmin edilməli, narkomaniyanın törətdiyi fəsadlar hər yerdə pislənməlidir.

Tədbirin sonunda gənclərin suallarına cavab verilmiş, narkomaniyaya qarşı filmə baxış olmuşdur.





**Arzu Ziyadzadə**

## Ana

Adı müqəddəsdir, laylası əziz,
Qəlbi , duyğuları, niyyəti təmiz.
Bəlkə dəyərini bilməmişik biz,
Ən zəngin xəzinə, dövlətdir ana.
***
Arzumuz arzusu, dərdimiz dərdi,
Onun diləkləri dünya qədərdi.
Sevgi istəyirdik qəlbini verdi,
Göylərə ucaldan şöhrətdir ana.
***
Öpün əllərindən, öpün gözündən,
Axı, nur süzülür hər an üzündən.
Çıxmayın heç zaman onun sözündən,
Mələklər diyarı, cənnətdir ana.
***
Çıxsa da naxələf onun övladı,
Düşməz heç dilindən bala fəryadı.
Cani övladı da o bağışladı,
Dünyada ən böyük hikmətdir ana.
***
Bilsə dərdimizi, görsə gözdə nəm,
Hər bir yaramıza eyləyər məlhəm.
Önündə diz çökür bütün bir aləm,
Vüqardır, hörmətdir, izzətdir ana.
***
Yetməz izahına sözlər, sətirlər,
Nəfəsi səhrada çiçək bitirər.
Viranə könlümə həyat gətirər,
Ən ülvi, ən təmiz nemətdir ana.

## Ayrılıq

Sevdim, uca tutdum, müqəddəs bildim,
Gündən- günə artan bu saf sevgini.
Sevincə yenidən dünyaya gəldim,
Yalnız sənə açdım təmiz qəlbimi.
Bilmədim bu qədər çətinmiş, çətin,
Sonu ayrılıqmış bu məhəbbətin.

Əlini uzatdın, əlindən rurdum,
Baxdım sevgi ilə baxan gözlərə.
Üşgin qanad verdi sevuncdən içdim,
İnandım dediyin yalan sözlərə.
Nə qədər çirkinmiş sənin niyyətin,
Sonu ayrılıqmış bu məhəbbətin.

Oynatdın qəlbimi oyuncaq kimi,
Bir yeni oyuncaq alana qədər.
Sıxılmış ərköyün bir uşaq kimi,
Əzib parçaladın, adın sən hədər.
Qurbanı mən oldum bu cunayətin,
Sonu ayrılıqmış bu məhəbbətin.

Hər kəs xoşbəxt sanır, bəxtəvər sanır,
Qəlbimdə fırtına varkən gülürəm.
İçimdə cəhənnəm alovu yanır,
Hər gün gözlərinə baxıb ölürəm.
Yandırıb kül etdi məni həsrətin,
Sonu ayrılıqmış bu məhəbbətin.

Gün gələr sən məni anlayacaqsan,
Qarşına sənintək birisi çıxar.
Ağlayıb özünü danlayacaqsan,
Daşlaşmış o qəddar qəlbini yaxar,
Məni qaytarmağa olmaz fürsətin,
Sonu ayrılıqmış bu məhəbbətin.

Yandı arzularım, söndü həyatım,
Nə ümüdüm qaldı, nə də həvəsim.
Bu eşqi qəlbimdən nə cecə atım,
Kəsildi nəfəsim, tutuldu səsin,
Bilmədim dadını mən səadətin,
Sonu ayrılıqmış bu məhəbbətin.

# Rəsmiyyə Ağayeva "Tərəqqi" medalı ilə təltif edildi

Xalça sənəti Azərbaycan dövlətinin, onun ali siyasi rəhbərliyinin daim diqqət mərkəzində olub. Bu diqqətin nəticəsidir ki, cənab Prezidentin 1 may 2017-ci il tarixli sərəncamı ilə Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətlərinə görə Azərbaycan xalçaçılığının inkişafında daim yaxından iştirak edən rayonumuzun, elimizin xalçaçı ustası kimi tanıdığı Ağayeva Rəsmiyyə Əfrəddin qızı "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Bu münasibətlə Lerik Rayon İcra Hakimiyyəti, rayon ictimaiyyəti və çalışdığı Lerik Peşə Məktəbinin kollektivi Rəsmiyyə Ağayevanı təbrik edir, xalq sənətinin inkişafındakı xidmətlərində uğurlar və müvəffəqiyyətlər arzulayırlar.

# Sizə minnətdarlıq

Uzun müddət pedoqoji sahədə çalışmışam. Yaşıma görə təqaüdə çıxmışam. Səhhətimlə əlaqədar Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Respublika xəstəxanasında müalicə olunuram. Burada təcrübəli həkimlərin və tibb işçilərinin diqqət və qayğısı ilə əhatə olunmuşam. İndi özümü yaxşı hiss edirəm. Xəstəxanada müalicəmlə məşğul olan tibb işçilərinə hədsiz minnətdaram.

İlk növbədə baş həkimGülya Mirzəliyevaya, həkim Güloğlan Mirzəliyevə, nəcib və qayğıkeş insan Xuraman xanım Zamanovaya təşəkkürümü bildirmək istəyirəm. Onun nəzər-diqqətini daim üstümüzdə hiss edirik.

Müalicəmizlə məşğul olan, əlləri şəfalı tibb işçilərindən Səadət Zöhrabova, Aybəniz Mehdiyeva, Nəzakət Dadaşova, Fazilə Dadaşova hər bir qayğımızı çəkir, sağlamlığımızın bərpası üçün əllərindən gələni əsirgəmirlər. Onlardan tək mən yox, hamı razılıq edir.

Var olun, ağ xalatlı ömür keşikçiləri!

***Rəsul Quliyev, "Qızıl qələm" mükafatçısı***

## Elan

**"Lerik" qəzeti 1937-ci ildən nəşr olunur. Lerik rayonunun ictimai-siyasi, mədəni mühitinə yaxından bələd olan yeganə qəzetdir.**

**"Lerik" qəzetinin müntəzəm olaraq çap olunması Sizlərdən çox asılıdır. Siz qəzeti yaşatmaqla, yəni müntəzəm olaraq abunə yazılmaqla, rayonun mətbuatda salnaməsini yaşadır, olub-keçənləri gələcək nəslə çatdırmağa kömək edirsiniz.**

**Unutmayın ki, qəzet Azərbaycan Respublikası rəhbərliyinin, hökumətin fərman, sərəncam, qərar və göstərişlərindən irəli gələn vəzifələri yerinə yetirməyə kömək edir. Bundan ötrü Lerik rayon mətbuat yayım şöbəsinə, "Lerik" qəzetinin redaksiyasına müraciət etmək kifayətdir.**

**Altı aylıq abunənin 1 nüsxəsinin qiyməti 10 manatdır.**

**Əlaqə telefonlarımız:**
**(070) 520-73-91.**

## Allah rəhmət eləsin

Lerik RİŞ başçısı Rövşən Bağırov və rəhbərlik etdiyi kollektivi Lerik rayon veteranlar təşkilatının sədri Hidayət Bəşirova və "Mətanət A" şirkətlər qrupunun prezidenti Elxan Bəşirova ərizələri

**Ağayar Bəşirovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə ba.sağlığı verirlər.

Lerik RİH başçısı Rövşən Bağırov, RİH- ın müavinləri Cəlil Baxşıyev, Habil Məlikov, Arzu Vəliməmmədov, Fəxrəddin Mirzəliyev, Hacı Musa Bədəlov, Qəhrəman Əliyev, Balaşirin Nəsirov, Mübariz Ağayev, Etibar Həşimov, Aqil Sucayev, Elman Abbasov, Elxan Əliyev, Zəfər İsmayılov, İlham Padiyev Lerik rayon veteranlar təşkilatının sədri Hidayət Bəşirova əzizi

**Ağayar Bəşirovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası

Redaktor İdris ŞÜKÜRLÜ

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küçəsi - 36
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur

Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi, 38833080000
Kod:200747
VÖEN:6300050071